**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№3 Humanitar elmlər seriyası 2013***

**UOT 94(479.24)**

# XIX ƏSRİN 2-Cİ YARISINDA BAKININ DEMOQRAFİK DURUMUNA MİQRASİYA PROSESLƏRİNİN TƏSİRİNƏ DAİR

**H.F.SADIQOVA**
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu***
***sadiqova hicabe@mail.ru***

*Məqalədə XIX əsrin II yarısında baş vermiş miqrasiya prosesləri nəticəsində Bakı şəhərinin demoqrafik durumunun hansı dəyişikliklərə məruz qalmasından bəhs olunur. Məqalənin ümumi məzmunundan aydın olur ki, bəhs olunan dövrdə həyata keçirilən köçürmələrdə çar hökumətinin əsas məqsədi özünə etnik dayaq yaratmaq olmuşdur.*

**Açar sözlər:** miqrasiya, demoqrafik, köçürmə, əhali, məskunlaşmaq

Məlumdur ki, kapitalist münasibətlərinin bərqərar və özünün yüksək inkişaf mərhələsinə daxil olması dövrünü əhatə edən bütün məsələlərin tədqiq olunması aktual elmi vəzifədir. Bu məqalədə biz ümumi şəkildə çar hökumətinin xristian məzhəbinə mənsub olan rus və erməni əhalisini Şimali Azərbaycan ərazisinə köçürməsi və bununla əlaqədar Bakı şəhərinin əhalisinin tərkibində hansı demoqrafik dəyişikliklərin baş verməsi prosesini araşdırmağa cəhd göstəririk.

Çağdaş Azərbaycan müəlliflərindən M.Sərdarov elmi ədəbiyyatda əhalinin miqrasiyasını tədqiq edən tədqiqatçıları 3 qrupa bölür. 1-ci qrupu təmsil edən N.N.Filippov və V.A.Suxovun fikrincə, miqrasiya adı altında əhalinin yaşadığı məkan daxilində yerdəyişməsi başa düşülür. Bu, geniş mənada, əhalinin təsərrüfat sahələri, ərazi, peşələr və sosial istiqamətlər üzrə yenidən bölüşdürülməsi anlamını verir. 2-ci qrupun tərəfdarları E.F.Baranov və B.D.Breyev yazırlar ki, geniş mənada "əhalinin miqrasiyası" məfhumu əmək fəaliyyətinin dəyişməsi ilə bağlı olaraq insanların yaşadıqları hər hansı bir ərazidən digər bir əraziyə köçməsi kimi dərk edilməlidir. 3-cü qrupu təmsil edən Y.N.Kozırev isə miqrasiya dedikdə əhalinin ticarət və məişətlə bağlı xidmət sahələrində işləmək məqsədilə yeni yaşayış məntəqəsində məskunlaşmasını, yaşayış yerini dəyişməsini nəzərdə tutur. Beləliklə, əhalinin miqrasiyası dedikdə, onun yaşadığı yeri dəyişməklə əlaqədar bir ərazidən digər əraziyə köçməsi prosesi başa düşülməlidir [6, 12].

M.Sərdarovun əsərində göstərildiyi kimi, Y.V.Bromley tərəfindən tarixi baxımdan miqrasiyanın ayrı-ayrı növlərinin 2 qrupa bölünməsi fikrimizcə uğurlu sayılmalıdır [6, 27].

1. Əhalinin böyük qruplarla köçməsi.

2. Nisbətən kiçik qruplarla, əsasən ailələrlə köçmə.

Məlumdur ki, hələ XIX əsrin 20-30-cu illərində miqrasiya prosesinin 3 istiqamətdə cərəyan etməsi ilə əlaqədar olaraq Şimali Azərbaycanın etnik xəritəsində bir sıra dəyişikliklər baş vermişdi. XIX əsrin əvvəllərində Napoleonun Avropaya yürüşləri nəticəsində 1-ci miqrasiya prosesi baş verdi və nisbətən az sayda almanlar Şimali Azərbaycan ərazisində yerləşdirildilər [1, 126]. XIX əsrin 90-cı illərinin əvvəllərində Bakı şəhərində yaşayan xaricilərin sayı 3.000-dən artıq idi [7, 63].

Daha sonra ermənilərin köçürülməsi ilə 2-ci miqrasiya prosesi həyata keçirildi. Rusiya ilə Qacarlar arasında bağlanan Türkmənçay müqaviləsindən, Osmanlılarla ilə bağlanan Ədirnə sülh müqavilərindən sonra ermənilərin kütləvi surətdə köçürülüb Cənubi Qafqazda, xüsusilə, Şimali Azərbaycanda yerləşdirilməsinə rəvac verilmişdir [6, 54].

Ruslaşdırma siyasəti Şimali Azərbaycan ərazisinin Rusiya imperiyasının ucqarına çevrilməsində az rol oynamırdı. XIX əsrin 50-70-ci illərində Bakı quberniyasında ermənilərin sayının artması sosial-iqtisadi və hərbi-siyasi amillərlə bağlı idi. 1886-cı ildə Bakı quberniyasında ermənilərin sayı 56.591 nəfərə bərabər idi ki, onların da 24.490 nəfəri Bakı şəhərində yaşayırdı. Bu rəqəm bütün Bakı quberniyasında yaşayan erməni əhalisinin 43,27% -ni təşkil edirdi [9, 233].

Etnik dayaq yaradılması məqsədilə rusların köçürülməsi ilə 3-cü miqrasiya prosesi baş verdi. Şimali Azərbaycan ərazisinə rusların köçürülməsi bütün XIX əsr və XX əsrin əvvəllərində baş vermişdi. Əgər əvvəlki köçürmələr etnik dayaq yaratmaq məqsədilə həyata keçirilirdisə, XIX əsrin 30-cu illərində köçürülənlər malakanlar, babtistlər, duxoborlar, subbotniklər, priqunlardan və sairədən ibarət idi. Onlar əsasən Qarabağ, Şirvan, Şəki, Lənkəran zonalarında yerləşdirilirdilər. 1830-cu ildə çar hökuməti "etibarsız ünsürlərin mərkəzdən ucqarlara sürgün edilməsi haqqında" xüsusi fərman verdi. Həmin ildə köçürülənlər Tambov, Saratov, Tavrida, Voronej, Orenburq, Yenisey və Bessarabiya bölgələrindən idilər. XIX əsrin 50-70-ci illərində Bakı quberniyasında artıq 61 rus kəndi var idi [9, 173, 179, 210].

Beləliklə, məlum olur ki, hələ XVIII əsrin əvvəllərində I Pyotrun dövründən başlayan çarizmin Qafqazda, eləcə də Azərbaycanda özünə etnik dayaq yaratmaq siyasəti sonrakı illərdə də davam etdirilmiş, Şimali Azərbaycan ərazisinə rusların və ermənilərin köçürülməsi işi həyata keçirilmişdir. Bundan başqa, Şimali Azərbaycanın Avropa ilə Asiyanın qovşağında yerləşməsi amili də onun hərbi-strateji və qonşu ölkələrlə ticarət aparılması nöqteyi-nəzərdən buranın çar hökuməti üçün necə böyük əhəmiyyət daşıdığını göstərir.

XIX əsrin II yarısında həyata keçirilən burjua islahatları Bakının iqtisadi inkişafına və əhalinin artımına öz təsirini göstərdi. 1861-ci ildə Rusiyada təhkimçilik hüququnun ləğv edilməsi sənayenin inkişafına şərait yaratdı və kənddən şəhərə əhali axınını gücləndirdi. Rusiya quberniyalarından minlərlə kəndli qazanc dalınca Bakı neft rayonuna üz tuturdular. Bakı fəhlələri arasında Voronej, Vyatsk, Sankt-Peterburq, Tver, Xarkov, Stavropol quberniyalarından, eləcə də Volqa-Don və Tver vilayətlərindən gələnlərin sayı xeyli artmışdı [14,

83]. Qafqaza rusların köçürülməsində Qafqaz canişini knyaz Vorontsovun da böyük rolu olmuşdur [12, 1]. 1861-1888-ci illər ərzində kənd təsərrüfatında məhsuldarlığın çox aşağı olması ilə əlaqədar Rusiyanın bir çox quberniyalarından və Volqaboyu ərazidən Bakıya əhali axını baş vermişdi. Yeni yerlərə köçənlərin yerli əhali ilə problemləri yaranırdı. Bu xüsusi ilə kənd yerlərində daha ciddi şəkil alırdı. 1888-ci ilin siyahıya almalarına görə, 1642 yaşayış məntəqəsindən 60-da rus kəndliləri yaşayırdılar [4, 350].

Çar hökuməti tərəfindən həyata keçirilən burjua islahatları, eləcə də 1861-ci ildə təhkimçilik hüququnun ləğv edilməsi kənddən şəhərə axının güclənməsinə, yəni miqrasiya proseslərinin artmasına səbəb oldu. Bu, həm şəhər əhalisinin sayının artmasına, həm də şəhərin iqtisadi həyatının güclənməsinə təsir göstərdi. Əgər 1854-cü ildə Bakı şəhər əhalisinin sayı 8374 nəfərdən ibarət idisə, 1874-cü ildə onların sayı 14577 nəfərə çatmışdı [11, 205]. Bakıda fəaliyyət göstərən rus millətinə mənsub olan fəhlələrin əksəriyyətini Povoljye quberniyalarından gələn torpaqsız kəndlilər təşkil edirdilər. Volqaboyu quberniyalarından Bakıya olan axının əsas səbəbi kənd təsərrüfatında baş verən quraqlığın doğurduğu aclıqlarla bağlı idi. 1881-1890-cı illər ərzində Samara quberniyasında 8, Saratovda 7, Kazanda 5, Simbirskidə isə 4 il quraqlıq olmuşdur [13].

Bakı şəhər əhalisinin ümumi sayı 1859-cu ldə 12191, 1873-cü ildə 15105, 1886-cı ildə 86611, 1889-cu ildə 92601 [7, 63], 1897-ci ildə isə 111904 nəfərdən ibarət olmuşdur. 1897-ci ildə ümumi əhalinin 71591 nəfərini gəlmələr təşkil edirdilər ki, onlar da şəhər əhalisinin ümumi sayının 63%-nə bərabər idi. 1859-cu ildən 1897-ci ilə qədər, yəni 38 il ərzində Bakı şəhər əhalisinin sayı 9 dəfə artmışdı [9, 255-257]. 1897-ci ildə keçirilən siyahıya almanın nəticələrinə görə, Bakı qəzasında yaşayan 182897 nəfər əhalinin 71169 nəfərini (38,9%) gəlmələr təşkil edirdilər [16, 187, 190]. Həmin siyahıya almaya görə, Bakı quberniyasına Yelizavetpol quberniyasından 5355 (5304 kişi, 51 qadın; bunlardan 5082-si fəhlə idi), Saratovdan 3196 (2268 kişi, 928 qadın; bunlardan 3180-ı fəhlə idi), Penzadan 1393 (1201 kişi, 192 qadın; bunlardan 1392-si fəhlə idi); Tambovdan 1292 (1156 kişi, 136 qadın; bunlardan 1290-ı fəhlə idi), Simbirskidən 1280 (1023 kişi, 257 qadın; bunlardan 1279-u fəhlə idi), Dağıstan hiyyəsindən isə 2741 nəfər əhali (2678 kişi, 63 qadın; bunlardan 2690-ı fəhlə idi) daxil olmuşdur [10, 13].

Rəqəmlərə diqqət yetirdikdə qadınların sayının kişilərin sayından xeyli çox olduğunu görürük. Bu da onların coxunun məhz işlə əlaqədar olaraq Bakı şəhərinə gəldiklərini göstərir.

XIX əsrin sonunda Bakı şəhər əhalisinin sayı Şimali Azərbaycanın bütün şəhərlərinin əhalisinin 41,7%-nə bərabər idi. Şəhər əhalisinin çoxsaylı artımı işçi axınının olması ilə əlaqədar idi [10, 13]. Eyni zamanda həmin vaxt Bakı quberniyasında, eləcə də Bakının özündə kişi cinsinə aid olan əhali artımının səbəbi də həmin işçi axını ilə bağlı idi. XIX əsrin 70-ci illərinin sonlarında Şimali Azərbaycana gələn rus köçkünlərinin sayı 27,5 min nəfərə bərabər idi ki, bu rəqəm də bütün əhalinin 2,2%-ni təşkil edirdi. 80-ci illərin ortalarında təbii artımın və yeni gələnlərin hesabına həmin rəqəm 11,3%-ə bərabər oldu. 1897-ci ildə Şimali Azərbaycanın rus əhalisinin 40,2%-i Bakıda yaşayırdı [10, 19].

XIX əsrin 80-ci illərində Cənubi Azərbaycandan Bakı neft rayonuna xeyli ucuz işçi qüvvəsi gəlirdi. Şimali Azərbaycanın bir sıra bölgələrindən də Bakı şəhərinə axınlar olurdu. 80-90-cı illərdə Zəngəzurdan Bakı neft mədənlərinə əhali axını baş verdi. Onların 90,9%-i ermənilərdən, 9,1%-i isə azərbaycanlılardan ibarət idilər. Bu dövrdə "Nobel qardaşları" şirkətinin Balaxanı neft mədənlərində Polşadan, Sibirdən, Orta Asiyadan və Avropa Rusiyasından gələn fəhlələr işləyirdilər. Bundan başqa, həmin mədənlərdə işləyən fəhlələrin 13,3%-ni Simbirskdən, 9,5%-ni Saratovdan, 16,6%-ni Tambovdan, 14,6%-ni isə Penzadan gələnlər təşkil edirdilər. Şibayevin zavodunda çalışanların 13,8%-i Penzadan, 8,9%-i Saratovdan, 7,9%-i Ryazandan, 7,5%-i Simbirskdən, 7,1%-i Nijneqoroddan, 6%-i Kazandan, 4,9%-i Vladimirdən, 4,8%-i isə Tambovdan gələn kəndlilər idilər [14, 93-94,96].

1897-ci ildə Şimali Azərbaycanda 94000 rus yaşayırdı ki [9, 350], onların da 38965 nəfəri Bakıda məskunlaşmışdı və şəhər əhalisinin 35,6%-ni təşkil edirdilər [8, 6].

1898-ci ildə Qafqazın baş mülki rəisi vəzifəsinə knyaz Qolitsının təyin olunması ilə rusların Cənubi Qafqazda məskunlaşdırılması məsələsi yenidən aktuallaşdı. 1899-cu ilin aprelində çar hökuməti rusların Şimali Azərbaycana və Qafqaza köçməsini xüsusi nəzarət altına alan qanun qəbul etdi [12, 1, 5].

Bakıya işçi axını Cənubi Azərbaycandan da olurdu. Bunun üçün qısa xülasəyə diqqət yetirək. Hələ Türkmənçay müqaviləsinin 14-cü maddəsi ilə qanuni surətdə əhalinin İrandan Cənubi Qafqaza və ya əksinə hərəkətinə icazə verilirdi [17, 15].

1844-cü il iyulun 3-də əhalinin İrandan Şimali Azərbaycana və əksinə gediş- gəlişi və ya köcməsi üçün iki ölkə arasında konvensiya baglanmışdı. Cənubi Azərbaycandan köcüb gedənlər 1844-cü il konvensiyasından daha qabaq olmuşdur [17, 15].

1868-ci il dekabrın 11-də İranın dövlət sərhəd rayonlarından Rusiya ərazisinə ancaq milli pasportlarla buraxılırdı və rus konsulunun icazəsinə ehtiyac yox idi. 1869-1872-ci illərdə İranda cox kəskin aclıq olmuş və təxminən 1,5 milyon adam ölmüşdü. Bahalıq, aclıq, yoxsulluq, yoluxucu xəstəliklər və quraqlıq 1871-1872-ci illərdə böyük miqdarda əhali itkisinə səbəb olmuşdu [17, 16].

Cənubi Azərbaycandan xüsusi ilə kəndlilər qazanc ardınca Bakıya və Rusiyaya gedirdilər. Onların gəlişi xüsusi pasportların verilməsi ilə asanlaşdırılırdı [2, vər. 3]. Arxiv sənədlərində qeyd olunur ki, Cənubi azərbaycanlılar Bakını öz doğma şəhəri hesab edərək gəlirdilər. Onlardan əsasən qara fəhlə kimi istifadə olunurdu ki, bunun da müqabilində onlara çox cüzi miqdarda əmək haqqı verilirdi [3, vər. 6].

Qacarlar hökuməti əhalinin Rusiyaya axınından çox narahatlıq və qorxu içərisində idi. Biz diqqət yetirdikdə görürük ki, həm Rusiya dövləti , həm də İran dövləti oz əhalisinin Azərbaycana və digər ölkələrə axışmasından bərk narahat idilər və qərarlar verməklə əhalinin köçməsinin qarşısını almAğa çalışırdılar.

Lakin bununla belə koçkünlərin qarşısını almaq olmurdu. 1901-ci ildə İrandan gələnlərin sayı neftçıxarma işində 6198 nəfərə bərabər idi. Xüsusilə,

Cənubi Azərbaycandan gələnlərin 26,8%-i, yəni 1801 nəfəri sırf buruqda işləyirdi. 1901-ci ildə mədən rayonunda Cənubi Azərbaycandan gələnlərin sayı 3168 nəfər, yəni 27,3% təşkil edirdi. Bakının neft sənayesində İrandan gələn köçklünlər bütün fəhlələrin 21-22%-ni təşkil edirdilər [17, 22].

XX əsrin əvvəllərində rus kəndlilərinin köçməsi genişləndi. Cənubi Qafqazda 119000 adam yerləşdirildi ki, onlar da əsasən şəhərlərdə məskunlaşırdılar. Əhali əsasən Bakı və Tiflis şəhərlərinə axın edirdi [16, 70].

1905-07-ci illərdən sonra Stolıpinin köçürmə siyasəti geniş vüsət aldı. Stolıpinin siyasətində əsas məqsəd köhnə icma təsərrüfatını dağıtmaq, "təhkimli zadəganların" yeni "mülkədarlarla", yəni varlı kəndlilər ilə kəndli burjuaziyasının ittifaqına arxalanmaq idi. Stolıpinin aqrar siyasəti özünün əməli tətbiqinə başlıca olaraq icma təsərrüfatlarının dağıdılmasını və "carizmin yerlərdə siyasi dayaq "yaratmaq niyyəti ilə ucqarlara rus kəndlilərinin köçürülməsini məqsəd qoymuşdu.

Kapitalist münasibətlərinin inkişafı əhalinin demoqrafik dəyişikliklərə məruz qalmasına da səbəb oldu. Şimali Azərbaycan ərazisinə ruslar, ukraynalılar, Kazan tatarları, dağıstanlılar, yəhudilər və almanlar köçüb gəldilər. Bu dövrdə Şimali Azərbaycanın, xüsusilə, Bakı şəhər əhalisinin etnik tərkibi rəngarəng idi. Bunu 1897-ci ilin siyahıya alınması işi də təsdiq edir. Bakı şəhər əhalisinin 29,2%-ni azərbaycanlılar, 27,1%-ni gürcülər, 21,9%-ni ermənilər və 45%-ni ruslar təşkil edirdilər [15, 280]. Artıq XIX əsrdən etibarən Bakı şəhəri özünün milli etnik tərkibinə görə beynəlmiləl şəhər olmuşdu. XX əsrin əvvəllərində Bakıda 80000 nəfər azərbaycanlı milləti ilə birlikdə 72000 rusdilli əhali də yaşayırdı [5, 31].

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, yuxarıda göstərilən miqrasiya proseslərinin həyata keçirilməsi Bakı şəhərinin ticarət, sənaye və digər sahələrində etnik tərkibi müxtəlif olan millətlərin sayının çoxalmasına səbəb olurdu. Bu proseslərdən ermənilər Şimali Azərbaycanda öz ərazi iddialarını irəli sürməyə və bunun üçün çar hökumətinin hamiliyindən istifadə etməyə çalışırdılar. Yəni ermənilərin bu torpaqlara köçürülməsi gələcəkdə onların öz çirkin niyyətlərini həyata keçirmək üçün bir mənbə rolunu oynadı. Burjua islahatlarının tətbiq olunmasına gəldikdə isə bu tədbirlərin həyata keçirilməsi bürokratik xarakterə malik olmuş və əsasən, xristianların mənafeyinə xidmət etmişdir.

Müasir dövrümüzdə torpaqlarımızın 20%-nin ermənilər tərəfindən işğal olunmasında yuxarıda göstərilən proseslərin rolu heç də az deyildir. Hal-hazırda demoqrafik məlumatları toplamaqla informasiya müharibəsi sahəsində Müstəqil Azərbaycan Respublikası öz sözünü deməyə qadirdir. Həmin məlumatlar nəinki Bakı şəhərində, həmçinin Qarabağda, İrəvanda, Zəngəzurda, Göyçədə, Borçalıda və bir sıra başqa ərazilərdə əzəldən azərbaycanlı türklərin yaşadıqlarını sübut edir.

**ƏDƏBİYYAT**


1. Ахундова Т. Немцы – колонисты Азербайджана XIX – нач. XX вв. Баку: Шуша, 1999, 122 с.
2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi (ARDTA), f.23, siy.11, iş 812.
3. ARDTA, f.44, siy.6, iş 17.

4. Cavadov Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Tarix və müasirlik. Bakı: Elm, 2000, 439 s.
5. Orucov H.Ə. Stolıpinin aqrar siyasətinin Azərbaycana tətbiqi məsələsinə dair // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası. 1964, №5, s.31-39.
6. Sərdarov M. Azərbaycanda miqrasiya prosesləri. Bakı: Adiloğlu, 2004, 155 s.
7. Баку и его окрестности. Тифлис, 1889, 98 с.
8. Баку и его район. Справочный ежегодник на 1912 год. Баку: Типографии: А.Н.Тараева, Л.Д. Мирзоянц и «Труд» С.Г.Берладира, 1912, 340 с.
9. Вердиева Х.Ю. Переселенческая политика Российской империи в Северном Азербайджане, XIX – начале XX вв. Баку: Алтай, 1999, 298 с.
10. Лернер Б.А. Количественные и качественные изменения в составе населения Азербайджана в последней трети XIX века. Баку, 1989, 27 с.
11. Мильман А.Ш. Политический строй Азербайджана в XIX – начале XX веков. Баку: Азернешр, 1966, 318 с.
12. Обзор переселенческого дела на Кавказе за пятилетие 1908-1912 гг. Санкт-Петербург, 1913, 39 с.
13. Журн. «Русское богатство», 1893, №2.
14. Стригунов И.В. Из истории формирования Бакинского пролетариата (70-90-е годы XIX в.). Баку: АН Азербайджанской ССР, 1960, 289 с.
15. Сумбатзаде А.С. Азербайджанцы – этногенез и формирование народа. Баку: Элм, 1990, 303 с.
16. Тихонов В.В. Переселение в России во второй половине XIX века. М.: Наука, 1978, 262 с.
17. Шукюров К.К. Отходничество в Закавказье из Южного Азербайджана (вторая треть XIX в. – 1905 г.). Автореферат диссертации на соискание ученой степени кандидата исторических наук. Баку, 1984, 25 с.

## О ВЛИЯНИИ МИГРАЦИОННЫХ ПРОЦЕССОВ ВО ВТОРОЙ ПОЛОВИНЕ XIX ВЕКА НА ДЕМОГРАФИЧЕСКУЮ СИТУАЦИЮ В ГОРОДЕ БАКУ

**Х.Ф.САДЫГОВА**

### РЕЗЮМЕ

В статье говорится об изменениях в демографической ситуации в городе Баку в результате миграционных процессов во второй половине XIX века. Из статьи выясняется, что основная цель Царского правительства в переселении населения в вышеуказанный период была создания для себя этнической поддержки в регионе.

**Ключевые слова**: миграция, демография, переселение, население, проживание

## ON THE INFLUENCE OF MIGRATION PROCESSES IN THE SECOND HALF OF THE XIX CENTURY ON THE DEMOGRAPHIC SITUATION IN THE CITY OF BAKU

**H.F.SADIGOVA**

### SUMMARY

The article deals with the changes in the demographic situation in the City of Baku as a result of migration processes took place in the second half of the XIX century. The general idea of the article is that the Tsar government of Russia intended to strengthen its position in the region by migrating certain ethnic groups to Baku thus creating an ethnic backing for its ruling.

**Key words:** emigration, demographic, transfer, people, settle in